# “Expressbank” Açıq Səhmdar Cəmiyyətinin Dividend Siyasəti

BAKI – 2019

## 1. Ümumi müddəalar

1.1. "Expressbank" ASC-nin (bundan sonra – Bank) Dividend Siyasəti (bundan sonra – Siyasət) Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Banklar Haqqında" Azərbaycan Respublikasının Qanununa və Bankın Nizamnaməsinə əsasən hazırlanmışdır.

1.2. Bu Siyasət dividendlərin ödənilmə şərtlərini və minimal həcmini, ödənmə ardıcıllığını, dividendlərin ödənilməsinə yönəldiləcək mənfəətin hissəsinin müəyyənləşdirmə mexanizmini və prinsiplərini müəyyən edir.

1.3. Bu Siyasətin məqsədi səhmdarları və digər maraqlı tərəfləri Bankın dividend siyasəti haqqında məlumatlandırmaqla yanaşı, Bankda dividend uçotunun aparmasının fundamental prinsiplərinin müəyyən edilməsi və bu uçotun idarə edilməsi çərçivəsində səlahiyyətlərin müəyyən edən qaydaların tərtib edilməsindən ibarətdir.

1.4. Dividend siyasəti bankın ümumi maliyyə strategiyasının bir hissəsi kimi, səhmlərin bazar dəyərinin qalxması baxımından, istifadə edilən və kapitallaşdırılan mənfəət arasında optimal nisbəti müəyyən etməkdən ibarətdir. Dividend siyasəti bankın kapital bazarındakı vəziyyətinə, xüsusilə də səhmlərin qiymətinə ciddi təsir edir.

## 2. Dividend siyasətinin prinsipləri

2.1. **Şəffaflıq** – dividend siyasətinin reallaşdırılmasında, o cümlədən, dividendlərin miqdarı və ödənilməsi qərarının qəbulunda iştirak edən tərəflərin məsuliyyəti və öhdəlikləri haqqında məlumatın aydınlaşdırılması və təyin edilməsi.

2.2. **Ədalətlilik** – dividendlərin verilməsi, məbləği və verilmə qaydaları haqda məlumatın alınması üçün bütün səhmdarların bərabər hüquqla təmin edilməsi.

2.3. **Ardıcıllıq** – dividend siyasətinin prosedur və prinsiplərinin mütləq qaydada icrası.

2.4. **İnkişaf** – korporativ idarəetmə prosedurlarının təkmilləşdirilməsi məqsədi ilə dividend siyasətinin daimi yenilənməsi və Bankın strateji məqsədləri dəyişdiyi halda siyasətin də yenidən baxılması.

2.5. **Sabitlik** – Bankın sabit dividend ödənişləri etmək təşəbbüsü.

## 3. Dividendlərin həcminin hesablanması qaydası

3.1. Dividend Azərbaycan Respublikasının pul vahidi olan manatla, hər bir səhm üçün hesablanır.

3.2. Hər bir səhmə düşən dividendin həcmini hesablamaq üçün dividendlərin ödənilməsinə ayrılan xalis mənfəət adi və tam ödənilmiş səhmlərin faktiki sayına bölünür. Bu zaman bankın balansında öz adına olan səhmlər nəzərə alınmır. Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.

3.3. Bank adi səhmlər üzrə dividendlərin hesablanmasını (bölüşdürülməsini) imtiyazlı səhmlərin bütün növləri üzrə dividendlərin hesablanmasından (bölüşdürülməsindən) sonra həyata keçirir.

3.4. Dividendlərin hesablanmasında (bölüşdürülməsində) ilk növbəlilik hüququ verən imtiyazlı səhmlər üzrə dividendlər digər imtiyazlı səhmlər üzrə dividendlərdən əvvəl bölüşdürülür.

3.5. Dividendin həcmi maliyyə ilinin sonu mənfəətin həcminə əsasən müəyyən edilir. Əgər səhmdarlara il ərzində aralıq dividendlər ödənilibsə, onda bu rəqəm səhmdarların ümumi yığıncağının qərarına əsasən maliyyə ilinin nəticələrinə əsasən elan edilmiş dividend məbləğindən çıxılır.

3.6. Səhmdarların ümumi yığıncağının qərarına əsasən illik dividendlərin ödənilməsi məqsədilə xalis mənfəətdən hər hansı bir faiz müəyyən edilə bilər.

## 4 Dividendlərin ödənilməsi qaydası və ona dair məhdudiyyətlər

4.1 Bank rüblük, yarımilllik, və ya maliyyə ilinin nəticələrinə əsasən illik dividendlərin verilməsinə dair qərar qəbul edə bilər.

4.2 Rüblük, yarmillik və ya maliyyə ilinin nəticələrinə əsasən illik dividendlərin ödənilməsinə və ya ödənilməməsinə dair qərar müvafiq dövrün sona çatmasından sonra üç ay ərzində qəbul edilə bilər. Dividendlərin ödənilməsinə, həmçinin dividendin kateqoriyasına görə dividendlərin ödəniş formasına dair qərar Bankın Müşahidə Şurasının tövsiyyəsinə əsasən Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilir.

4.3 Maliyyə ilinin nəticələrinə görə zərər/mənfəətin dividend şəklində səhmdarlar arasında bölüşdürülməsinə dair qərar ilkin olaraq Bankın Müşahidə Şurasının iclasında müzakirə edilir və ¾ səs çoxluğu ilə qəbul edildikdən sonra, Səhmdarların Ümumi Yığıncağına çıxarılır.

4.4 Dividendlərin ödənilməsinə dair qərarla aşağıdakılar müəyyə edilməlidir;

- Dividendlərinin ödənişi elan edilən səhmlərin kateqoriyası və növü;
- Hər hansı bir səhm kateqoriyası və növü üçün dividendin həcmi;
- Ödənişin müddəti;
- Ödənişin növü.

4.5 Dividendlərdən hər hansı vergilərin tutulması qanunvericilikdə nəzərdə tutulmuşdursa, səhmdarlardan tutulacaq vergilər nəzərə alınmadan dividendlər elan edilir.

4.6. Bank, aşağıdakı hallarda səhmlər üzrə dividendlərin ödənişini elan edə bilməz:

4.6.1. Bankın nizamnamə kapitalı tam ödənilənədək;

4.6.2. Əgər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən bank müflis elan edilibsə və ya dividendlərin ödənilməsi bankın müflis olmasına səbəb olarsa;

4.6.3. Əgər dividendlərin ödənilməsi haqda qərar qəbul edildiyi gündən bankın xalis aktivləri onun nizamnamə kapitalından az olarsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, ehtiyyat fondu və nizamnamədə nəzərdə tutulmuş güzəştli səhmlərin dəyərindən az olarsa;

4.6.4. Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

4.7. Bank səhmlər üzrə elan edilmiş dividendləri aşağıdakı hallarda ödəməyə bilər:

4.7.1. Əgər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən bank müflis elan edilibsə və ya dividendlərin ödənilməsi bankın müflis olmasına səbəb olarsa;

4.7.2. Əgər dividendlərin ödənildiyi gün bankın xalis aktivləri onun nizamnamə kapitalından az olarsa, ehtiyyat fondu və nizamnamədə nəzərdə tutulmuş güzəştli səhmlərin dəyərindən az olarsa;

4.7.3. Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

4.8. Dividendlərin ödənilməsinə məhdudiyyətlər başa çatdıqdan sonra bank müəyyən müddət üzrə xalis mənfəətdən dividendləri ödəyir.

## 5. Dividendi almaq hüququ olan şəxslər

5.1. Səhmlər üzrə dividend almaq hüququ olan şəxslərin siyahısı, dividendlərin ödənilməsi barədə qərar qəbul edildikdən sonra, yəni hansı səhmlərə dividend ödəniləcəyi müəyyən edildikdən sonra tərtib edilir. Bu siyahı səhmdarların yığıncağında iştirak edəcək şəxslərin siyahısı tərtib edildiyi, dividendlərin ödənilməsinə dair qərar qəbul edildiyi gün hazırlanır.

5.2. Dividend almaq hüququ olan səhmdarların siyahısına səhmdarların reyestrində qeydiyyatına alınmış (nominal səhmdarlar nəzərə alınmadan) şəxslər və siyahının tərtib edildiyi tarixə nominal səhmdarların xeyrinə səhm saxladıqları şəxslərin adları salınır.

5.3. Əgər bir səhmin bir neçə sahibi varsa və onlar arasında bağlanmış müqavilədə digər hal nəzərdə tutulmayıbsa, onda dividend mütənasib qaydada bölünür.

## 6. Dividendlərin ödənilməsinin forma və müddətləri

**6.1. Səhmlərə dividendlərin hesablanması qaydası**

6.1.1. Aşağıdakı səhmlərə dividend hesablanmır və ödənilmir:

- Yerləşdirilməmiş;
- Bankın balansına cəlb edilmiş;
- Bankın balansına alınmış;
- Səhmdarların öz öhdəliklərini yerinə yetirməməsi səbəbindən Bankın ixtiyarına qayıdan səhmlər;
- Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

6.2. Hər bir səhmdara düşən dividendlərin həcmi, bir səhmə düşən dividend məbləğini müvafiq səhmdarın sahib olduğu səhmlərin sayına vurmaqla müəyyən edilir.

6.3. Hər bir səhm növü və tipi üzrə hesablanılmış dividendlərin həcmi, hesablanarkən vergüldən sonra olan qəpiklər yuvarlaq rəqəmədək yuvarlaqlaşdırılmalıdır.

## 7. Dividendlərin ödənilməsinin təşkili

7.1. Səhmdarlara dividendlərin ödənilməsinin təşkili, kordinasiyası və bununla əlaqədar olan bütün tədbirlər bankın səhmdarlarla iş aparan müvafiq struktur bölməsi həyata keçirir.

7.2. İstənilən səhmdar onun adının dividend ödəniləcək şəxslərin siyahısından çıxarılmasına və ya salınmasına, həmçinin dividendlərin hesablanması qaydasına, hesablanılmış dividendlərə görə faizlərin ödənilməsinə və dividendlərin ödənilmə formasına dair öz təkliflərini Banka təqdim edə bilər.

7.3. Bank dividendlərin elan edilməsinə dair məlumatı, ödəniş üsulu və tarixi barədə məlumatı kütləvi informasiya vasitələrində və Bankın korporativ saytında yerləşdirir. Bank dividend almaq hüququ olan bütün səhmdarları sifarişli məktub göndərməklə və ya şəxsən imzalamaqla dividendlərin elan edilməsi barədə məlumatlandıra bilər.

7.4. Məlumatda aşağıdakılar əks etdirilməlidir;

- Dividendlərin ödənilməsinə dair qərar qəbul edən orqanın adı;
- Dividendlərin elan edilmə tarixi;
- Dividend almaq hüququ olan şəxslərin siyahısı və onun tərtib edilmə tarixi;
- Ödəniləcək dividendin həcmi;
- Dividendin ödənilmə forması;
- Dividendin ödənilmə tarixi;
- Dividendin ödənilmə üsulu, əgər dividend nağd şəkildə ödənilirsə ödənişin həyata keçirildiyi ünvan;
- Dividendin gəlir vergisi tutulduqdan sonra və ya əvvəl ödənildiyinə dair məlumat;
- Dividendlərin ödənilməsinə dair məlumat (bu barədə qərar qəbul edilən tarixdən 15 gündən gec olmayaraq açıqlanmalıdır).

7.5 Bank dividendlərin ödənişini təşkil etmək və həyata keçirmək üçün kənar bir təşkilatda (daha sonra mətndə ödəniş üzrə agent) cəlb edə bilər. Dividend ödənişinə agentin cəlb edilməsi Bankı səhmdarlar qarşısında dividendlərin ödənilməsi öhdəliyindən azad etmir.

7.6. Bank dividendlərin ödənişi üçün ödəniş üzrə agent cəlb etmək üçün agentlə hər iki tərəfin hüquq və vəzifələrini özündə əks etdirən müqavilə imzalamalıdır.

7.7. Ödəniş üzrə agenti Bankın İdarə Heyətinin sədri seçir. Bunun üçün o Banka daha sərfəli şərtlərlə müqavilə bağlamaq üçün müsabiqə keçirə bilər.

## 8. Yekun müddəalar

8.1. Bu Siyasət Bankın Müşahidə Şurasının iclasında iştirak edən üzvlərin səs çoxluğu ilə müzakirə edildikdən və Bankın Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edildiyi andan qüvvəyə minir.

8.2. Bu Siyasətə əlavə və dəyişikliklər Bankın Müşahidə Şurasının iclasında iştirak edən üzvlərin səs çoxluğu ilə müzakirə edilir, Bankın Səhmdarların Ümumi Yığıncağında iştirak edən səhmdarların adi səs çoxluğu ilə təsdiq edilir.